LİON SECURİTY MMC -LS-D-S-0008 -000

# KEYFİYYƏT SİYASƏTİ

Lion security özəl mühafizə şirkətinin fəaliyyətinin əsas məqsədlərindən biri keyfiyyətli xidmətlərin vaxtlı-vaxtında və rəqabətə davamlı qiymətlərlə göstərulməsi üçün Lion security şirkətinin imicini qoruyub saxlamaq və daha da yüksəltməkdən ibarətdir.

Lion security şirkəti özəl mühafizə xidmətinin İSO 9001:2015 standartının tələblərinə uyğun olaraq təmin edilməsi üzrə Vahid İdarəetmə Sistemini tətbiq edir. Bu Vahid İdarəetmə Sistemi gösətrilən xidmətin keyfiyyətinə aid olan bütün mərhələlərdə Keyfiyyətin Təminatı üzrə Rəhbər Təlimatın, keyfiyyət sisteminin uyğun prosedurlarının, işçi təlimatların və səmərəlilik göstəricilərinin istifadəsini əhatə edir.

Bu system uyğun milli və beynəlxalq standartlar, qanunvericilik və əməyin mühafizəsi üzrə tələblərin bizim tərəfimizdən qəbul edilməsini və bu tələblərə müvafiq ardıcıl və davamlı nəzarətin aparılmasını təmin etmək üçün yaradılmışdır.

Sistemin tətbiqinin uğurla nəticələnməsi Lion security şirkətinin bütün işçilərindən davamlı inkişaf siyasətinə həm fərdi və kollektiv çalışqanlıq vasitəsilə uyğun olmaq, həm də işçilərin və müştərilərin mövqeyinin öyrənilməsi və nəzarəti üzrə öhdəçilik tələb edir.

Lion security şirkəti həmçinin daxili və xarici müştərilərin tələblərini qarşılıqlı səmərəli qiymətləndirmə üslubunda qəbul etməli və yerinə yetirməlidir.

Lion security şirkətinin məqsədi müştəri tələblərini ödəyən və bu tələbləri üstələyən xidmət təminatı vasitəsilə müştərilərin sayını və davamlı müştəri bazasını artırmaqdır. Biz həmçinin işçilərimizin bilik və bacarıqlarının artırılmasını məqsəd kimi qarşıya qoyuruq. Bu məqsədlərə Vahid İdarəetmə Sisteminin şirkətin bütün səviyyələri üzrə həyata keçirilməsi və ona nəzarətin yerinə yetirilməsi vasitəsilə nail oluna bilər.

Lion security şirkətinin rəhbərliyi şirkətin göstərdiyi xidmətlərin keyfiyyətinin davamlı şəkildə təkmilləşdirilməsi istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyət göstərməyi öhdəsinə götürür

**Vüqar Məmmədov**

**Direktor**

**01 İyun 2023**